AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *AZƏRBAYCAN RESPUBLİKASI RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI* |
| Qəbul edildiyi tarix | *30.10.2014* |
| Qeydiyyat nömrəsi | *06* |
| Adı | *"Poçt rabitəsinin Milli operatoru tərəfindən "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi Qaydaları"nın ləğv edilməsi haqqında* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *08.11.2014* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *180.010.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *15201410300006* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *07.11.2014* |

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 avqust tarixli 955 nömrəli Fərmanının 1.1.6-cı yarımbəndinin icrası məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 19 iyun tarixli 185 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə"nin 5.11.6-cı yarımbəndini rəhbər tutaraq Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin kollegiyası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2013-cü il 7 may tarixli 5 nömrəli qərarı ilə təsdiq edilmiş və 20 may 2013-cü il tarixində Hüquqi Aktların Dövlət Reyestrinə 15201305070005 nömrəsi ilə daxil edilmiş "Poçt rabitəsinin Milli operatoru tərəfindən "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi Qaydaları" ləğv edilsin.

2. Hüquq və insan resursları şöbəsinə (B. Məmmədov) tapşırılsın ki, bu qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

3. Bu qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

4. Sənədlərlə iş və təminat şöbəsinə (İ. Tağıyev) tapşırılsın ki, bu qərarın surətinin RYTN-in struktur bölmələrinə, strukturuna daxil olan qurumlara və strukturuna daxil olmayan tabeliyindəki qurumlara göndərilməsini təmin etsin.

5. Qərarın icrasına nəzarət Aparatın rəhbəri V.Zeynalova həvalə edilsin.

**Sədri,**
**Nazir** **Ə.M. Abbasov**

**Katib,**
**SİŞ-in müdiri** **İ. Tağıyev**